# Pengutex TC

## Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Penguin Pengutex TC akrili kopolimer əsaslı, sərt hava şəraitinə yüksək dayanıqlılıq göstərən, rulo ilə üzərinə müxtəlif bəzək verilə bilən çöl divar örtüyüdür. Yüksək örtücülük xassəsinə malikdir, tək qat olaraq da istifadə oluna bilər. Tərkibində xüsusi dolğu hissəcikləri sayəsində divarın nəfəs almasını təmin edir.

## İstifadə olunacaq səthlər

Hər növ divar,tavan,məcun,suvaq,beton,alçıpan və betopan kimi iç səthlərdə istifadə oluna bilər.

## Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Penguin Pengutex TC örtüyündən əvvəl səthə Penguin Universal Primer çəkilir. İkinci qat olaraq havasız tapanca ilə Penguin Pengutex TC püskürdülür, əzilmə üsulu ilə naxış verilir və üzərinə son qat çöl üçün nəzərdə tutulmuş boya iki qat olaraq çəkilir. Səth tempraturu +5-+30°C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir. Məhsul ən çox 10% su ilə durulaşdırıla bilər.

## Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Multicolor sistemi ilə rəngələnə bilər |
| **Qatı maddə miqdarı** | 85±2% |
| **Sıxlığı (q/ml)** | 1.8±0.02 q/ml |
| **Parlaqlıq** | Mat |

## Tətbiq üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

## Quruma müddəti

Quruma müddəti əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Nisbi rütubət 80%-dən yuxarı olmamalıdır

| **Havanın temperaturu** | **10°C** | **23°C** |
|---|---|---|
| **Üst quruma** | 5 saat | 1 saat |
| **Tam (sərt) quruma** | 20 saat | 8-10 saat |

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Pengutex TC

## Texniki Məlumat Səhifəsi

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +5˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Yararlılıq müddəti açılmamış qablaşdırmasında 3 ildir.

### Qablaşdırılma şəkli

25kq -lıq plastik qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

S 2 : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun.
S 3 / 7 : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın.
S 24 / 25 : Göz və dəri ilə təmasdan qoruyun.
S 29 : Kanalizasiyaya atmayın.
S 46 : Udulduğu halda dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin.

---

**Qeyd:** *"CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az